

“Azərbaycan xalqının özünü, öz dövlətini qoruya bilən əsgərləri, zabitləri, ordusu var”.

# AZƏRBAYCAN ORDUSU

AZƏRBAYCAN RESPUBLİKASI MÜDAFİƏ NAZİRLİYİNİN ORQANI

Qəzet 1992-ci il fevralın 11-dən çıxır 9 fevral 2022-ci il №11 (2622) https://mod.gov.az Qiyməti 30 qəpik

*Təlim*

## Uğur və Qələbə yolu Vətən sevgisindən başlayır



***Şəxsi heyətin müvəqqəti məskən salıb məşğələ keçdiyi əraziyə çatdıq. Ərazidə artilleriya vasitələri, o cümlədən "Qrad"lar görünürdü. Qurğuların bir az arxa tərəfində, təyin olunan yerdə dayanan zabitlər çöl məşğələsini idarə edirdilər.***

Məşğələdən daha ətraflı məlumat almaq üçün mayor Elvin Hüseynovla görüşdük. Zabit dedi ki, döyüş hazırlığı planına uyğun olaraq əsgərlərə təlim keçir, onlara "Qrad" yaylım atəşli reaktiv sisteminin taktiki-texniki xüsusiyyətlərini və döyüşdə tətbiqini dərindən öyrədirik. "Şəxsi heyət səhra vərdişlərini və döyüş hazırlığını daha da artırır. Əsgərlərimiz məşğələdə fəal iştirak edir, hərbi bilik və vərdişlərini həvəslə mənimsəyirlər. Türk dünyasının böyük sərkərdəsi Mustafa Kamal Atatürk çox dahiyanə şəkildə deyib: "Təlimdə tər - döyüşdə zəfər". Doğrudan da, təlimdə nə qədər çox tər töksən, döyüşdə o qədər az itki verərsən".

Zabit Elvin Hüseynov Vətən müharibəsindən söz açaraq bildirdi ki, əsgərlərimiz İkinci Qarabağ müharibəsində böyük hünər göstərdilər, erməni qəsbkarlarına sarsıdıcı zərbələr endirdilər. "Müharibənin ilk günlərindən divizionun şəxsi heyəti müharibəyə cəlb olundu. Talış və Suqovuşan kəndləri uğrunda cəsarətlə vuruşdular. Düşmən üzərində qələbənin qazanılmasına öz töhfələrini verdilər. İşğalçının onlarla zirehli texnikasını sıradan çıxartdılar. Hər bir döyüşçü üzərinə düşən tapşırıqların öhdəsindən bacarıqla gəldi. Vətən müharibəsi göstərdi ki, şəxsi heyətin döyüş hazırlığı yüksək səviyyədədir. Döyüş hazırlığımız nə qədər yüksək olsa da arxayınlaşmırıq. Daim təlim keçir, təkmilləşir, yeniliklərdən geri qalmırıq. Necə deyərlər, zamanla ayaqlaşırıq. Çünki uğur və zəfər inkişafın üzərində qurulur, qələbəyə yol isə Vətən sevgisindən başlayır. İnanıram ki, bilik və döyüş vərdişlərini təkmilləşdirən əsgərlərimiz gələcəkdə daha böyük uğurlar qazanacaqlar. Yüksək döyüş hazırlığı, zəngin hərbi biliklər həmişə zabiti də, əsgəri də zəfərlərə, qələbələrə qovuşdurur".

Söhbətimizi müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu çavuş Vüqar Kərimovla davam etdiririk. Öyrənirik ki, 2009-cu ildən doğma ordumuzun sıralarında xidmət edən "Qrad" döyüş maşınının komandiri də Vətən müharibəsinin iştirakçısı olub. Yurdumuzun azadlığı uğrunda vuruşub. Döyüşlərdə göstərdiyi igidliyə və cəsarətə görə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müvafiq Sərəncamı ilə "Suqovuşanın azad olunmasına görə" medalına layiq görülüb.

- Sentyabrın 27-də əks-hücum əməliyyatı başladı. Hərbi hissədən cəbhə bölgəsinə yola çıxdıq, - deyə Vüqar Kərimov sözə başladı. - Qısa müddət ərzində təyin olunmuş əraziyə gəldik. "Qrad" yaylım atəşli reaktiv sistemi "döyüş" vəziyyətinə gətirib düşmən mövqelərini atəşə tutduq. Bir müddət bu istiqamətdə fəaliyyətdən sonra Suqovuşan istiqamətinə göndərildik. Həmin günlərdə bu yaşayış məntəqəsi uğrunda gərgin döyüşlər gedirdi. Əlverişli mövqe tutub işğalçıların üzərinə mərmi yağdırdıq. Açdığımız atəşdən düşmənin onlarla canlı qüvvəsi və zirehli texnikası məhv oldu. Fəxr edirəm ki, Zəfərin əldə olunmasında bizim də payımız var.

**(Ardı 2-ci səhifədə)**



Azərbaycan Ordusunda yeni tədris dövrünün məşğələləri keçirilir
**2-ci səhifədə**



Azərbaycan Ordusunda andiçmə mərasimləri keçirilib
**5-ci səhifədə**



Cəsur döyüşçü və ya bir ailənin Vətən sevgisi
**7-ci səhifədə**



“Yoldaşlıq dostluğun başlangıcıdı”
**8-ci səhifədə**

# Azərbaycan-Türkiyə hərbi əməkdaşlığının genişləndirilməsi məsələləri müzakirə olunub





Müdafiə Nazirliyi Mətbuat Xidməti xəbər verir ki, fevralın 8-də Azərbaycan Respublikasının müdafiə naziri general-polkovnik Zakir Həsənov ölkəmizdə səfərdə olan Türkiyə Respublikasının milli müdafiə nazirinin müavini cənab Muhsin Dərənin rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüb.

Qonaqları salamlayan müdafiə naziri Azərbaycan ilə Türkiyə arasında hərbi əməkdaşlığın yüksələn xətlə inkişaf etdiyini vurğulayıb.

Hər iki ölkənin dövlət başçılarının səmimi münasibətlərinin hərbi əməkdaşlığa da müsbət təsir etdiyini deyən general-polkovnik Zakir Həsənov strateji müttəfiqliyin dostluq və qardaşlıq əlaqələri üzərində qurulduğunu bildirib.

M.Dərə də öz növbəsində, qarşılıqlı əməkdaşlığın genişləndirilməsi baxımından bu cür görüşlərin vacibliyini xüsusi qeyd edib.

Görüşdə Bakıda keçiriləcək "Texnofest-2022" festivalında Azərbaycan Hərbi Hava Qüvvələrinin vasitələrinin və hərbi qulluqçularının iştirakı barədə fikir mübadiləsi aparılıb.

Sonda Azərbaycan ilə Türkiyə arasında ikitərəfli əməkdaşlığın inkişaf perspektivləri, o cümlədən hərbi-texniki sahədə birgə işçi qruplarının yaradılması və qarşılıqlı maraq doğuran digər məsələlər müzakirə edilib.

## Strateji araşdırmalar və dövlət müdafiəsini idarəetmə akademik kursunun açılış mərasimi keçirilib



Müdafiə Nazirliyi Mətbuat Xidməti xəbər verir ki, Silahlı Qüvvələrin Hərbi Akademiyasının Strateji araşdırmalar və dövlət müdafiəsini idarəetmə akademik kursuna növbəti qəbulun açılış mərasimi keçirilib.

Əvvəlcə xalqımızın ümummilli lideri Heydər Əliyevin və Vətənin ərazi bütövlüyü uğrunda şəhidlik zirvəsinə ucalanların xatirəsi bir dəqiqəlik sükutla yad edilib. Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.

Silahlı Qüvvələrin Hərbi Akademiyasının rəisi general-leytenant Heydər Piriyev akademik kursun açılışı münasibətilə Müdafiə nazirinin adından mərasim iştirakçılarını təbrik edib, tədrisdə və işlərində uğurlar arzulayıb.

Təhsil müddətində dinləyicilərə beynəlxalq münasibətlər, qlobal təhlükəsizlik, xarici siyasətin, strategiya və müdafiənin planlaşdırılmasının, dövlət müdafiəsinin və müdafiə resurslarının idarə edilməsinin əsaslarına dair mövzularda mühazirələrin oxunacağı bildirilib. Tədris prosesi 5 ay olmaqla hər ilin fevral-iyun aylarında mühazirələr, seminarlar, qrup çalışmaları və praktiki təcrübələr formasında keçiriləcək.

## Azərbaycan Ordusunda yeni tədris dövrünün məşğələləri keçirilir



Müdafiə Nazirliyi Mətbuat Xidməti xəbər verir ki, cari ilin döyüş hazırlığı planına uyğun olaraq Azərbaycan Ordusunun mexanikləşdirilmiş və tank bölmələri ilə yeni tədris dövrünün məşğələləri keçirilir.

Ümumqoşun təlim mərkəzlərində keçirilən dərslərdə bölmələr "Həyəcan" siqnalı ilə qaldırılaraq cəmləşmə rayonlarını tutublar.

Vətən müharibəsində qazanılan döyüş təcrübəsi nəzərə alınmaqla, müasir idarəetmə üsullarının tətbiq edilməsi ilə keçirilən dərslərdə bölmələr digər qoşun növləri ilə qarşılıqlı əlaqədə yerdəyişmə tapşırıqlarını icra edir.

Məşğələlərdə əsas diqqət heyətlərin zirehli texnikaları çətin keçilən ərazilərdə idarə etməsi və real döyüş şəraitində tətbiqi üzrə vərdişlərinin yüksəldilməsinə, o cümlədən müxtəlif manevrlər etməklə atış çalışmaları yerinə yetirməsinə yönəldilir.

Həmçinin komandir və müvafiq vəzifəli şəxslərin bilik səviyyəsi, eləcə də idarəetmə və çevik qərar qəbuletmə vərdişləri inkişaf etdirilir.

* * *

2022-ci ilin döyüş hazırlığı planına uyğun olaraq, Azərbaycan Ordusunun Raket və artilleriya bölmələri ilə yeni tədris dövrünün məşğələləri keçirilir.

Daimi dislokasiya məntəqələrini həyəcan siqnalı ilə tərk edən raket və artilleriya bölmələri təyin edilmiş marşrutlarla hərəkət edərək atəş mövqelərini tutublar.

Keçirilən məşğələlərdə əsas diqqət Vətən müharibəsində əldə edilmiş döyüş təcrübəsi nəzərə alınmaqla, komandir heyətinin çevik qərar qəbuletmə bacarıqlarının təkmilləşdirilməsinə, eləcə də digər qoşun növləri ilə qarşılıqlı əlaqədə atəşi idarəetmə suallarının məşq etdirilməsi və hərbi qulluqçuların praktiki vərdişlərinin inkişaf etdirilməsinə yönəldilib.

## Uğur və Qələbə yolu Vətən sevgisindən başlayır



(Əvvəli 1-ci səhifədə)

Vətən müharibəsində çox gərgin və şərəfli günlər yaşadıq. Düşmən işğalında olan torpaqlarımızı azad edərək, xalqımıza qələbə sevinci yaşatdıq. Düşmən üzərində zəfər baxmayaraq, bu gün yenə də təlim-məşğələlər keçir, döyüş hazırlığımızı artırırıq. Hərbçi kimi müharibədə bir daha şahidi oldum ki, hazırlığı yüksək olanlar qalib gəlir, zəfər qazanırlar.

"Qrad" döyüş maşınının sürücüsü əsgər Nofəl Məmmədov dedi ki, Vətən müharibəsində iştirak etməyimdən qürur duyuram. "Əks-hücum əməliyyatları başlanan kimi bizi ön xəttə göndərdilər. İlk günlər Ağdam və Tərtər istiqamətindəydik. Bir müddətdən sonra bizi Suqovuşan və Talış istiqamətinə göndərdilər. Başqaları kimi biz də döyüş tapşırığının öhdəsindən bacarıqla gəldik. Müharibədən sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müvafiq Sərəncamı ilə "Suqovuşanın azad olunmasına görə" medalına layiq görülmüşəm".

Heyət nəfəri əsgər Elgün Dünyamalıyev də Vətən müharibəsinin iştirakçısıdır. O, Suqovuşan və Talış istiqamətində gedən döyüşlər zamanı üzərinə düşən tapşırıqların öhdəsindən bacarıqla gəlib. Cəsarəti və hünəri ilə həm əsgər yoldaşlarının, həm də komandirlərinin rəğbətini qazanıb. Vətən müharibəsində göstərdiyi cəsarət və igidliyə görə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müvafiq Sərəncamı ilə "Suqovuşanın azad olunmasına görə" medalına layiq görülüb.

- Xidmətdə və döyüşlərdə olduğum günlər həyatımın ən mənalı anlarıdır. Mən bunları heç vaxt unutmayacağam. Zabitlərlə, əsgərlərlə çiyin-çiyinə xidmət etdiyim, döyüşdüyüm günləri həmişə qürur və iftixar hissləri ilə xatırlayacam, - deyə əsgər Elgün Dünyamalıyev bildirdi.

Heyət nəfərləri əsgərlər Samir Məlikov və Əli İsmayılovla da söhbət etdik. Dərs və məşğələlərdə fəal iştirak edən Samir və Əlinin məqsəd və amalı Vətənə sədaqətlə xidmət etmək və daim döyüş hazırlıqlarını artırmaqdır. Amallarına çatmaq üçün onlar xidmətlərinə məsuliyyətlə yanaşırlar.

Çöl məşğələsində hazırlığını artırmaqla, daim uğurlar qazanmağa can atan zabit və əsgərlərlə maraqlı söhbətimiz sonlandı. Zəfər qoxulu döyüş hazırlığı məşğələləri keçən şəxsi heyətdən müsbət təəssüratlarla ayrıldıq. Əminəm ki, həmişə onlardan xoş soraqlar alacağıq.

**Vahid MƏHƏRRƏMOV**
**"Azərbaycan Ordusu"**

# Müzəffər Ali Baş Komandanın Gənclər Forumunda səsləndirdiyi fikirlər Ordu gənclərinin döyüş ruhunu daha da artırıb

*Azərbaycan Gəncləri Gününün 25 illiyinə həsr olunmuş Gənclər Forumunda dövlətimizin başçısı, Müzəffər Ali Baş Komandan İlham Əliyevin çıxışı və çoxsaylı sualları cavablandırarkən səsləndirdiyi fikirlər Ordu gənclərinin döyüş ruhunu, vətənpərvərlik hissini daha da artırıb, onların fəaliyyətində yeni bir mərhələnin başlanğıcını qoyub.*



Hazırda Əlahiddə Ümumqoşun Ordu, birlik, birləşmə, hərbi hissə və xüsusi təyinatlı təhsil müəssisələrində, ideoloji və mədəniyyət mərkəzlərində Gənclər Forumunun materialları geniş təbliğ edilərək dərindən öyrənilir, forum iştirakçıları ilə şəxsi heyətin görüşləri keçirilir və Ordu gəncləri milli və dövlətçilik maraqlarını hər şeydən üstün tutaraq Vətənə, xalqa, dövlətə sədaqətli xidmətlərini şərəflə davam etdirirlər.




Forumun əvvəlində Prezidentə ünvanlanan "Milli-mənəvi dəyərlərimizin qorunması və gələcək nəsillərə ötürülməsi üçün müasir Azərbaycan gənclərinin fəaliyyətini necə qiymətləndirirsiniz?" sualına Müzəffər Ali Baş Komandanın əhatəli cavabı hər bir Vətən əsgəri üçün də artıq fəaliyyət kredosuna çevrilib: "Milli-mənəvi dəyərlər dövlətimizin əsasını təşkil edir... Müstəqil Azərbaycan dövləti milli dəyərlər üzərində qurulub... Biz bu dəyərləri qoruyub saxladıqca, dövlətimiz daha da qüdrətli olacaq, xalqımız da əbədi azad, müstəqil xalq kimi yaşayacaq".

Azərbaycanda dövlət gənclər siyasətinin əsasını qoymuş ulu öndər Heydər Əliyev vaxtilə demişdir: "Milli dəyərlərimizi, milli ənənələrimizi yaxşı bilməyən, tariximizi yaxşı bilməyən gənc vətənpərvər ola bilməz. Hər bir gənc vətənpərvər olmalıdır. Vətənpərvərlik böyük bir məfhumdur. Bu, sadəcə orduda xidmət etmək deyil. Vətənə sadiq olmaq, Vətəni sevmək, torpağa bağlı olmaq - budur vətənpərvərlik".

Prezident İlham Əliyev Gənclər Forumunda sualları cavablandırarkən dediyi hər kəlmədə, hər fikrində də gənclərimizi milli dəyərlərimizin tərkib hissəsi olan zəngin mədəniyyətimizi, tariximizi, ədəbiyyatımızı, ana dilimizi qorumağa, milli köklər üzərində inkişaf etdirməyə, gənclərimizi bundan sonra da mütləq vətənpərvərlik əsasında tərbiyə etməyə, Vətənə bağlılıq, Vətənə sevgi, Vətən maraqlarını, dövlət maraqlarını hər şeydən üstün tutmağı özlərinə borc bilməyə çağırıb.

Müzəffər Ali Baş Komandan fəxr edir ki, Vətən uğrunda, torpaq uğrunda qabağa gedənlərin əksəriyyəti gənclər idi. Qarabağı görməyən, o acı tarixi görməyən gənclər Qarabağ uğrunda, Vətən uğrunda, milli ləyaqət uğrunda ölümə gedirdilər və şəhid oldular, qazi oldular, müzəffər ordumuzun şöhrətini yüksəklərə qaldırdılar. Hətta çətin anlarda bizim hərbçilərimiz mümkün olmayanı da reallığa çevirmişlər. Milli ruh, milli ləyaqət və vətənpərvərlik onları irəliyə aparırdı... Azərbaycanlılarla mübarizə aparmaq, müharibə aparmaq çox baha başa gələ bilər...

19 il öncə hər bir Azərbaycan vətəndaşının prezidenti olacağına and içən və bu məsuliyyətli, şərəfli missiyanı uğurla yerinə yetirən dövlətimizin başçısının Gənclər Forumunda səsləndirdiyi fikirlər Azərbaycan Ordusunun Təlim və Tədris Mərkəzinin Heydər Əliyev muzey-lektoriyasında ordu gəncləri nümayəndələrinin iştirakı ilə keçirilən tədbirdə də hərarətlə qarşılanıb.

Xalqımızın ümummilli lideri Heydər Əliyevin və şəhidlərin xatirəsi bir dəqiqəlik sükutla yad edildikdən sonra Müstəqil Azərbaycan Respublikası Gənclərinin Birinci Forumunun və forumun birinci ildönümündə Ulu Öndərlə görüşün iştirakçısı, Əməkdar incəsənət xadimi, Prezidentin fərdi təqaüdçüsü polkovnik Abdulla Qurbani çıxış edərək Heydər Əliyevlə başlanan dövlət gənclər siyasətinin bu gün də ölkəmizdə uğurla davam etdirildiyini və növbəti Gənclər Forumunun ölkə gənclərinin həyatında yeni bir mərhələ açacağına əminliyini bildirib.

Qeyd olunub ki, dünya üzrə Gənclər Günü Azərbaycanda təsis edildikdən iki il sonra, 1999-cu ildə Birləşmiş Millətlər Təşkilatı tərəfindən elan edilib. Bu, bir tarixdir və tarixdən heç nəyi silmək olmaz.

Gənclər Forumunda Müzəffər Ali Baş Komandanın Vətən müharibəsi haqqında danışarkən dediyi "Bütün xalq bu müharibədə Qələbə əldə etmək üçün çalışırdı... Yaşlı nəsil, təcrübəli insanlar, komandirlər, gənclər, xalqımız bir orqanizm kimi, bir yumruq kimi birləşdi və tarixi ədaləti bərpa etdi" fikirləri gənclərdə nə qədər qürurverici hisslər yaşadıbsa, "Müharibədə iştirak etmiş və qəhrəmanlıq göstərmiş minlərlə Azərbaycan gəncinin üzərinə indi bax, bu məsuliyyət düşür və əminəm ki, gənclər bunu dərk edir və öz əməlləri ilə yeni yetişən nəsil üçün də nümunə olacaqlar" fikirləri müharibə iştirakçılarının məsuliyyətini daha da artırıb. Onlar Prezident İlham Əliyevin etimadını doğrultmağa, əməlləri ilə nəsillərə nümunə olacaqlarına söz veriblər.

Müdafiə Nazirliyi İdeoloji İş və Mənəvi-Psixoloji Təminat İdarəsinin rəisi general-mayor Bəkir Orucov tədbir iştirakçılarını və qonaqları salamlayaraq Azərbaycan Gəncləri Gününün 25 illiyinə həsr olunmuş Gənclər Forumunda Azərbaycan Prezidenti İlham Əliyevin çıxışının və səsləndirdiyi fikirlərin ordumuzun həyatında da geniş iz buraxdığını və Ordu gənclərinin qarşısında daha məsuliyyətli mühüm vəzifələr qoyduğunu qeyd edib.

General-mayor B.Orucov böyük əminliklə bildirib ki, Azərbaycan Ordusunun şəxsi heyəti, xüsusilə də ordu gəncləri bundan sonra da Müzəffər Ali Baş Komandanın əmr, göstəriş və tapşırıqlarını müvəffəqiyyətlə yerinə yetirəcək, xidməti vəzifələrinin öhdəsindən layiqincə gələcəklər.




Dövlətimizin başçısının "Biz Şuşanı necə götürmüşüksə, bu, ayrı dastandır, qəhrəmanlıqların zirvəsidir, mənəvi-fiziki gücün sintezidir. Bu, fədakarlığın zirvəsidir. Bu aslanlarımız, qəhrəmanlarımız Şuşaya doğru meşələr, cığırlar aşaraq gediblər" fikirləri tədbir iştirakçılarının nəzərinə çatdırıldıqdan sonra Vətən müharibəsi iştirakçısı polkovnik Elşad Əbilov həmin aslanlardan biri, Azərbaycan Respublikasının ərazi bütövlüyünün bərpa edilməsində xüsusi xidmətlərinə və işğal olunmuş ərazilərin azad olunması zamanı düşmənin məhv edilməsi üzrə qarşıya qoyulmuş döyüş tapşırığını yerinə yetirərkən göstərdiyi qəhrəmanlıq nümunəsinə, həmçinin hərbi qulluq vəzifəsini yerinə yetirərkən igidlik və mərdlik nümayiş etdirdiyinə görə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə "Vətən Müharibəsi Qəhrəmanı" adına layiq görülmüş kapitan Ramazan Hudulovu tədbir iştirakçılarına təqdim edərək deyib: "Gənclər Forumunda Azərbaycan Ordusunu təmsil edən hərbi qulluqçulardan biri də kapitan Ramazan Hudulovdur. Onun 27 yaşı var. Balakən rayonunda anadan olub. Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinin əlaçı məzunlarındandır. Vaxtilə mənim də xidmət etdiyim cəbhə bölgəsindəki hərbi birlikdə gənc leytenant kimi fəaliyyətə başlayıb. Vətən müharibəsinin ilk günündən tabor komandirinin müavini kimi hərbi əməliyyatlara qatılıb. Dörd dəfə ağır qəlpə yarası almasına baxmayaraq döyüş meydanını tərk etməyib. Xocavənd və Füzuli rayonlarının bir neçə yaşayış məntəqəsini işğaldan azad etdikdən sonra Laçın yoluna, mədəniyyətimizin paytaxtı Şuşa şəhərinə doğru şanlı döyüş yolu keçib. Şuşanın açarı olan Daşaltı kəndinin azad edilməsində mühüm xidmətlər göstərib. Tabor komandiri ağır yaralanıb təxliyə edildikdən sonra taborа komandirliyi üzərinə götürüb. Düşmənə tutarlı zərbələr vuraraq təminat gətirən onlarla vasitəni və düşmənin xeyli canlı qüvvəsini məhv edib. Göstərdiyi şəxsi igidlik və şücaətə görə müharibənin gedişində "kapitan" hərbi rütbəsinə, sonra isə "Vətən Müharibəsi Qəhrəmanı" adına layiq görülüb, "Füzulinin azad olunmasına görə", "Qubadlının azad olunmasına görə", "Şuşanın azad olunmasına görə" və digər döyüş medalları ilə təltif edilib. Hazırda Azərbaycan Ordusunda xidmətini uğurla davam etdirir".

Vətən Müharibəsi Qəhrəmanı, Gənclər Forumunun iştirakçısı kapitan Ramazan Hudulov alqışlarla qarşılanıb və ona gül çələngi təqdim olunub.

Kapitan Ramazan Hudulovun sevimli müəllimi, Birinci Qarabağ müharibəsinin qazisi, ehtiyatda olan polkovnik-leytenant Bəhruz Rüstəmov vaxtilə dərs dediyi kursantla bu gün "Vətən Müharibəsi Qəhrəmanı" kimi görüşdüyünü həyatının ən xoşbəxt günü kimi daim xatırlayacağını, qəhrəmanla birlikdə Daşaltı kəndinə qədər döyüş yolu keçən müharibə qazisi əsgər Şamo Zərbalıyev mina partlayışı nəticəsində ağır yaralanarkən gənc komandirinin ona göstərdiyi ilk tibbi yardımı heç vaxt unutmayacağını qeyd ediblər.

(Ardı 5-ci səhifədə)

# Milli Qəhrəman Mübariz İbrahimovun xatirəsi yad edildi



*Azərbaycan Ordusunda hər il fevralın 7-də Milli Qəhrəman Mübariz İbrahimovun doğum günü ilə əlaqədar silsilə tədbirlər keçirilir.*

Ənənəvi olaraq bu il də Müdafiə Nazirliyinin bir qrup yüksək rütbəli zabit heyəti və hərbi qulluqçuları qəhrəmanın doğum günü münasibətilə məzarını ziyarət edib, üzərinə gül dəstələri düzüblər.

Eyni zamanda Həzi Aslanov adına Ordu İdeoloji və Mədəniyyət Mərkəzində də xalqımızın qəhrəman övladının anadan olmasının 34-cü ildönümünə həsr olunmuş "Ölümə gülümsəyən tənha savaşçı" adlı anım tədbiri keçirildi.

Azərbaycan Ordusunun qoşun növlərinin bir qrup zabit, əsgər heyətinin, kütləvi informasiya vasitələrinin, respublikamızın tanınmış incəsənət və mədəniyyət nümayəndələrinin iştirak etdiyi anım tədbirində əvvəlcə ulu öndər Heydər Əliyevin və torpaqlarımızın azadlığı uğrunda canından keçən Vətən övladlarımızın xatirəsi bir dəqiqəlik sükutla yad olundu. Azərbaycan Respublikasının Dövlət Himni səsləndirildi.

Milli Qəhrəman Mübariz İbrahimovun şərəfli həyat və şanlı döyüş yolundan bəhs edən videoçarx tədbir iştirakçılarına təqdim olundu.

Tədbirin aparıcısı Gülxar Məmmədova 44 günlük Vətən savaşında, xalqımızın haqq mübarizəsində qazanılan Zəfərimizdən, Müzəffər Ali Baş Komandanın sərkərdəlik bacarığından, qətiyyətli çıxışlarından, Azərbaycan Ordusunun mərd, igid zabit və əsgərlərinin şücaətindən, Mübarizin, Fəridin döyüş yolunu özlərinə örnək bilən, onların qəhrəmanlıq ruhunu yaşadan oğulların ölümsüzlüyündən geniş söhbət açdı: "Mübariz İbrahimov Azərbaycan oğullarının qəhrəmanlıq simvoludur. Onun əfsanəvi qəhrəmanlığından bəhs edən neçə- neçə bədii əsərlər, o cümlədən "Mübariz" operası, "Hər birimiz Mübarizik, Fəridik!" (Qəhrəmanlıq balladası) yazıldı. Vətən mühaibəsində Mübarizin qəhrəmanlığını davam etdirən oğullar onun qisasını döyüş meydanında aldılar".

Respublikanın əməkdar artisti Ramil Qasımov çıxışında "Mübariz" operasında qəhrəmanın rolunu ifa etməsindən fərəhlə danışdı: "Bu opera da Milli Qəhrəmanımız Mübariz İbrahimovun əziz xatirəsinə həsr olunub. Operanın librettosunun hərbi mahnıların və marşların müəllifi tanınmış bəstəkar Şahin Musaoğlu yazıb. Musiqi nömrələri, marşlar insanda vətənpərvərlik hisslərini, duyğularını alovlandırır.





Burada Mübarizin qəhrəmanlığı musiqinin dili ilə təkcə Azərbaycana deyil, bütün dünyaya təqdim olunur. Onun qəhrəmanlığı ədəbiyyatda, musiqilərdə, mahnılarda özünə əbədiyyət qazanıb".

Daha sonra Həzi Aslanov adına Ordu İdeoloji və Mədəniyyət Mərkəzinin Mahnı və Rəqs ansamblının rəisi respublikanın əməkdar artisti mayor Cahangir Qurbanov çıxışında vurğuladı ki, Mübariz kimi Vətən oğullarının qəhrəmanlığını tərənnüm edən belə operalar çox yazılacaq. Azərbaycan Ordusunda Mübarizlər, Fəridlər bu gün də var, sabah da olacaq. Allah bütün şəhidlərimizə rəhmət eləsin.

Respublikanın əməkdar artisti Ceyhun Qubadov, bəstəkar Nərminə Nağıyeva, rejissor İnarə Babayeva yaradıcılıqlarında Vətən müharibəsində əldə olunan Qələbənin böyük yer aldığını və Mübarizin qəhrəmanlığının gənclərə daim aşılandığını qeyd etdilər. Gənclərimizə tövsiyə olaraq bildirdilər ki, Mübarizlərin, Fəridlərin döyüş yolunu daha dərindən öyrənib öz gələcək yollarını seçsinlər.

Sonda Həzi Aslanov adına Ordu İdeoloji və Mədəniyyət Mərkəzinin solistləri vətənpərvərliyi, qəhrəmanlığı tərənnüm edən mahnılar, marşlar ifa etdilər.

**Lalə HÜSEYNOVA**
**"Azərbaycan Ordusu"**

# Azərbaycanın Milli Qəhrəmanı Viktor Seryoginin xatirəsi anılıb



Ukraynanın Xarkov şəhərində Azərbaycanın Milli Qəhrəmanı Viktor Seryoginin şəhid olmasının 30-cu ildönümü ilə əlaqədar anım tədbiri keçirilib.

Azərbaycan Respublikasının Diasporla İş üzrə Dövlət Komitəsinin mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, Xarkov vilayətində fəaliyyət göstərən "Dostluq" Ukrayna-Azərbaycan Cəmiyyətinin təşkilatçılığı ilə öncə Milli Qəhrəmanın vaxtilə yaşadığı binaya həkk olunmuş xatirə lövhəsinin önünə Viktor Seryoginin ailə üzvləri, Xarkov Şəhər Şurasının və Azərbaycan diasporunun nümayəndələri güllər düzüb, onun əziz xatirəsini bir dəqiqəlik sükutla yad ediblər. Şəhər məscidinin axundu Niyaməddin Babayev qəhrəmanın ruhuna dualar oxuyub.

Tədbir iştirakçıları qarşısında çıxış edən "Dostluq" Ukrayna-Azərbaycan Cəmiyyətinin sədri Murad Ömərov 1992-ci ildə pilot Viktor Seryoginin Birinci Qarabağ müharibəsində göstərdiyi şücaətdən, onun idarə etdiyi helikopterin Şuşa şəhəri üzərində vurulmasından, bu qədim Azərbaycan şəhərinin 28 il sonra Vətən müharibəsi zamanı erməni işğalçılarından azad edilməsindən ətraflı danışıb.

Sonra Oksana Seryogina atasının qəhrəmanlığının unudulmamasına, xatirəsinin əbədiləşdirilməsinə görə dövlətimizin rəhbərliyinə, Azərbaycan diasporuna və şəhər ictimaiyyətinə minnətdarlığını bildirib.

"Dostluq" Mədəni-Tədris Mərkəzində davam etdirilən anım mərasimində Murad Ömərov, Şevçenko rayon Təhsil İdarəsinin əməkdaşı Yelena Silçenko, Azərbaycanın Xarkovdakı fəxri konsulu Əfqan Salmanov və "Aynur Xatun" Azərbaycanlı Qadınlar Cəmiyyətinin sədri Kifayət Cəfərova çıxış ediblər. Onlar Azərbaycan dövlətinin və Azərbaycan xalqının Viktor Seryoginin şücaətini yüksək qiymətləndirdiyinə, Milli Qəhrəmanın ailə üzvlərinə xüsusi diqqət və qayğı ilə yanaşıldığına, belə qəhrəmanların gənclər arasında təbliğ olunmasının əhəmiyyətinə diqqəti cəlb ediblər.

Daha sonra Azərbaycanın Milli Qəhrəmanının xatirəsinin Xarkovda əbədiləşdirilməsi ilə bağlı "Dostluq" Cəmiyyətinin son 20 il ərzində gördüyü işlərə həsr olunmuş videosüjetlər və slaydlar nümayiş etdirilib.

# Hərbi qulluqçuların psixoloji sahədə maarifləndirilməsi üzrə tədbirlər keçirilib



*Müdafiə naziri general-polkovnik Zakir Həsənovun tapşırığına əsasən, Şəxsi Heyət Baş İdarəsinin İdeoloji İş və Mənəvi-Psixoloji Təminat İdarəsinin psixoloqlarının Respublika Hərbi Prokurorluğunun və Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin nümayəndələri ilə birlikdə hərbi hissələrdə tədbirlər keçirilib.*

Müdafiə Nazirliyi Mətbuat Xidməti xəbər verir ki, plana əsasən bölmələrdə şəxsi heyətin mənəvi-psixoloji vəziyyətinin öyrənilməsinə, hüquq qaydalarının və hərbi intizamın möhkəmləndirilməsinə komandir-rəis heyətinə köməklik göstərilməsinə dair tövsiyə xarakterli metodiki məşğələ keçirilib.

Tədbirlər çərçivəsində hərbi xidmətə yeni çağırılan gənc əsgərlərlə onların xidmət şəraitinə uyğunlaşması və psixoloji sağlamlığının qorunması məqsədilə kollektiv, qrup və fərdi qaydada psixoloji yardım və dəstək fəaliyyəti həyata keçirilib, söhbətlər aparılıb.

Sonda gənc əsgərləri maraqlandıran suallar cavablandırılıb və onlara hərbi xidmətlə bağlı lazımi tövsiyələr verilib.

# Müzəffər Ali Baş Komandanın Gənclər Forumunda səsləndirdiyi fikirlər Ordu gənclərinin döyüş ruhunu daha da artırıb

(Əvvəli 3-cü səhifədə)

Səmimi qarşılanma üçün bir daha minnətdarlıq edən qəhrəman döyüşçümüz R.Hudulov Vətən müharibəsi iştirakçısı polkovnik Elvin Əzizov, Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinin kursantı Fazil Əhmədov, Cəmşid Naxçıvanski adına hərbi liseyin kursantı Əhməd Məmmədov, müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu Elşən Behbudlu və başqalarının suallarına maraqlı cavablar verib, xatirələrini tədbir iştirakçıları ilə bölüşüb.

Müzəffər Ali Baş Komandanla görüşlərini xatırlayan kapitan R.Hudulov Gənclər Forumunda dövlət başçısının səsləndirdiyi fikirlərin onda da böyük ruh yüksəkliyi yaratdığını və bundan sonra da milli və dövlətçilik maraqlarını prioritet edərək ölkəmizdə vətənpərvərliyin təbliği sahəsində səylərini əsirgəməyəcəyini vurğulayıb.

"Həyatımda əlamətdar hadisələr çox olub. Ancaq Hərbi Qənimətlər Parkında Prezident İlham Əliyevlə görüşümüz heç vaxt yadımdan çıxmır. Mən o vaxt Müzəffər Ali Baş Komandanın qarşısında çıxış edərək qalib Azərbaycan Ordusunun hər bir döyüşçüsünün ürəyindən keçənləri dövlətimizin başçısına çatdırdım. Məruzə etdim ki, Azərbaycan Ordusunun qalib Ordu səviyyəsinə yüksəldilməsi, ordumuzun gücü dünya orduları sırasında yer alması şəxsən Müzəffər Ali Baş Komandanın adı ilə bağlıdır. Bu müharibədə digər amillərlə yanaşı, Ulu Öndərimizin azərbaycançılıq məfkurəsi də qələbə çaldı. Nəzərə çatdırdım ki, Azərbaycanda bir çox xalqların nümayəndələri - türklər, ləzgilər, avarlar, talışlar, ruslar, yəhudilər, udinlər, tatlar və digər xalqların nümayəndələri mehriban bir ailənin üzvü kimi yaşayırlar. Mən avar xalqının nümayəndəsiyəm, mən Azərbaycan vətəndaşıyam! Bizim bir adımız var, biz Azərbaycanlıyıq! Azərbaycanlı olmağımızla hər birimiz həmişə fəxr etmişik, bu gün də fəxr edirik. Bu birlik, bu dostluq, bu qardaşlıq Qələbəyə gedən yolda daha da möhkəmləndi, daha da bərkidi".



Vətən Müharibəsi Qəhrəmanı Prezident İlham Əliyevin ""Dəmir yumruq", sadəcə, güc deyil, bu, birlikdir. Bizdə bu gün olan birlik, hesab edirəm ki, hər bir ölkə üçün, multikonfessional və çoxmillətli ölkə üçün nümunə ola bilər. Siz gənclər, bax, bu ideyaları qorumalısınız" fikrini xatırladaraq bir daha bəyan etdi ki, heç bir yad təsir, fitnə-fəsad bizim birliyimizi poza bilməz, bizi haqq yolumuzdan döndərə bilməz! Biz birik, biz bərabərik, biz həmrəyik və hər birimiz Azərbaycanlıyıq, hər birimiz Qarabağlıyıq!

Tədbirin sonunda Vətən Müharibəsi Qəhrəmanı, Gənclər Forumunun iştirakçısı kapitan Ramazan Hudulova Müdafiə Nazirliyinin rəhbərliyi adından qiymətli hədiyyə təqdim edilib və bundan sonrakı fəaliyyətində də ona yeni müvəffəqiyyətlər arzulanıb.

**Müdafiə Nazirliyi
Mətbuat Xidməti**

# Azərbaycan Ordusunda andiçmə mərasimləri keçirilib



Müdafiə nazirinin təsdiq etdiyi illik hazırlıq planına əsasən, fevralın 6-da Azərbaycan Ordusunda gənc əsgərlərin andiçmə mərasimləri keçirilib. Mərasimlərdə ulu öndər Heydər Əliyevin və Vətənimizin müstəqilliyi, ərazi bütövlüyü uğrunda şəhid olanların xatirəsi bir dəqiqəlik sükutla yad edilib. Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.

Müdafiə Nazirliyi Mətbuat Xidməti xəbər verir ki, gənc əsgərlər təntənəli surətdə Hərbi andı qəbul edərək Vətənə sadiq olacaqlarına söz veriblər.

Sonra Müdafiə Nazirliyinin nümayəndələri və hərbi hissələrin komandanlıqları gənc əsgərləri Hərbi andı qəbul etmələri münasibətilə təbrik edib, onlara xidmətlərində nizam-intizamlı, vicdanlı və cəsarətli olmağı, həvalə edilmiş silah və texnikanı dərindən öyrənməyi, Vətənə olan əsgəri borcunu ləyaqətlə yerinə yetirməyi arzulayıblar.

Sonda hərbi qulluqçular təntənəli marşla tribunaların önündən keçiblər.

Qeyd edək ki, son günlər ölkədə COVID-19 virusuna yoluxma sayında artımın müşahidə edildiyi nəzərə alınaraq Azərbaycan Ordusunda xidmət edən hərbi qulluqçuların valideynləri və yaxınları ilə görüşü müvəqqəti olaraq qadağan olunub.

* * *

Naxçıvan Qarnizonu Qoşunlarında gənc əsgərlərin andiçmə mərasimləri keçirildi.

Vətənə sədaqət andı içən gənclərimiz xalqımıza qələbə sevinci yaşadan hərbi qulluqçularımızın davamçıları olaraq Vətənimizin müdafiəsində cəsarətlə dayanacaqlarına, Hərbi andın və nizamnamələrin tələblərinə ciddi əməl edəcəklərinə, hərbi sirri qoruyacaqlarına, silah və döyüş texnikasını həmişə saz və döyüşə hazır vəziyyətdə saxlayacaqlarına söz verdilər.

Tədbirdə çıxış edənlər Hərbi andı qəbul edib tam hüquqlu əsgər olmanın sevinci və qürurunu yaşayan gənc əsgərləri təbrik edərək xidmətlərində uğurlar arzuladılar.

Naxçıvan Qarnizonunun rəisi general-polkovnik Kərəm Mustafayevin təbriki şəxsi heyətə çatdırılan zaman Hərbi andı qəbul edən gənclərimizin əsgər adını şərəflə daşıyacaqlarına, Vətənin müdafiəsində cəsarətlə dayanacaqlarına və uğurlu döyüş növbətçiliyi aparacaqlarına inam ifadə edildi.

Təbrik oxunduqdan sonra şəxsi heyətin təntənəli keçidi oldu.

**Nəriman NƏCƏFOV
Naxçıvan Muxtar
Respublikası**



"N" hərbi hissəsində gənc əsgərlərin hərbi andiçmə tədbiri böyük coşqu ilə keçdi. Polkovnik Fuad Mirzəyev general-mayor Vasif Kazımova gənc əsgərlərin hərbi andiçməyə hazır olması haqqında məruzə etdi.

Polkovnik Fuad Mirzəyev çıxış edərək hərbi andın hərbi xidmətin mahiyyətini müəyyənləşdirən vacib bir tədbir olduğunu xatırlatdı:

- Hərbi and gənc əsgərlərin Vətənə sədaqət andıdır. Müstəqil Azərbaycanın Silahlı Qüvvələrində xidmətə başlayanlar Hərbi and içir, bu anda xidməti müddətində məsuliyyətlə əməl edir. Vətən müharibəsində döyüşənlər 2016-cı ilin aprelində də, 2020-ci ilin iyulunda da qətiyyətlə döyüşənlərin döyüş əzminin, qələbə ruhunun davamçısı oldular. Ali Baş Komandanın müzəffər sərkərdəliyi ilə düşmənin illərlə yaratdığı, möhkəmləndirdiyi, təkmilləşdirdiyi müdafiə sədlərini qısa müddətdə darmadağın etdilər, döyüşə-döyüşə mövqe qələbələri qazandılar. Noyabrın 8-də Şuşa şəhərini də işğaldan azad etdilər. Bu, Zəfər günü oldu. Əminəm ki, bu gün burda Hərbi and içən gənc əsgərlər onların işğaldan azad etdiyi torpaqları böyük məsuliyyətlə, xalqa, dövlətə, dövlətçiliyə sədaqətlə qoruyacaqlar.

Birinci Qarabağ müharibəsi əlili, istefada olan mayor, şəhid atası Əli Quliyev çıxışında qeyd etdi ki, hər oğul Vətən qarşısında müqəddəs borcunu Vətənin adına layiq səviyyədə yerinə yetirir, yerinə yetirməlidir. Mənim oğlum Eltay da Vətən müharibəsi iştirakçısı idi, Şuşa istiqamətində gedən döyüşlərdə şəhid oldu. İkinci oğlum da hərbi xidmətdədir. Mən bu gün Hərbi and içən əsgər balalara deyirəm ki, Vətəni şəhidlərimizin sevdiyi qədər sevin.

Gənc əsgərlər adından Mirzağa Axundzadə çıxış edərək hərbi hissənin rəhbərliyini, valideynləri, ictimaiyyəti əmin etdi ki, nümunəvi xidmət edəcəklər, komandirlərin bütün əmrlərini, göstərişlərini məsuliyyətlə, vaxtında yerinə yetirəcəklər.

General-mayor Vasif Kazımov Hərbi and içən gənc əsgərlərə Quru Quşunları komandanı general-leytenant Ənvər Əfəndiyevin təbrik məktubunu oxudu.

Andiçmə tədbirinin sonunda vətənpərvərlik mahnılarından ibarət konsert proqramı təqdim edildi.

**Mübariz MUSAYEV
"Azərbaycan Ordusu"**



"N" hərbi hissəsində tədbiri giriş sözü ilə açan polkovnik-leytenant Bəhram Abdullayev gənc əsgərləri Hərbi andı qəbul etmə münasibəti ilə təbrik etdi. "Bildiyiniz kimi, 2020-ci ilin sentyabrın 27-də Müzəffər Ali Baş Komandanın döyüş əmri ilə rəşadətli Azərbaycan Ordusu Ermənistanın irimiqyaslı təxribatının qarşısını almaq məqsədilə əks-hücuma keçdi. Cəmi 44 gün davam edən haqq savaşımızda ordumuz tarixi ədaləti bərpa etdi. Torpaqlarımız işğaldan azad olundu. Hərb tariximizdə yeni səhifəni cəsur döyüşçülərimiz yazdılar. Artıq siz də Azərbaycan əsgərisiniz. Bu şərəfli adı daşımaq, Vətənə sadiqlik andı içmək sizə də qismət oldu. Əminliklə deyə bilərəm ki, müddətli həqiqi hərbi xidmət dövründə hərbi biliklərə yiyələnəcək, fiziki, atəş və döyüş hazırlıqlarınızı təkmilləşdirəcəksiniz. Bir daha sizi Hərbi andı qəbul etməyiniz münasibəti ilə səmimi qəlbdən təbrik edirəm. Gələcək xidmətinizdə nizam-intizamlı, vicdanlı və cəsarətli olmağı, təhkim olunan silah və texnikaların taktiki-texniki xüsusiyyətlərini dərindən öyrənməyi, Vətənə olan əsgəri borcunu şərəflə yerinə yetirməyi arzulayıram".

Gənc əsgər Kamran Kərimli Hərbi andı qəbul etməyindən qürurlandığını bildirdi. Orduya çağırılmamışdan əvvəl də əsgər forması geyinməyi, əsgər olmağı çox arzuladığını qeyd etdi. "Bu gün arzuma çatdım. Əsgər həyatı mənalı bir həyatdır. İndi bizim üzərimizə hər bir vəzifəni namusla, vicdanla yerinə yetirmək öhdəçiliyi düşür. Hər birinizi Hərbi andı içməyiniz münasibəti ilə təbrik edirəm. Azərbaycan əsgəri hər zaman igid və mərd olub, biz də bu adət-ənənəni davam etdirəcəyik.

**Leytenant
İbrahim MƏMMƏDBƏYOV
"Azərbaycan Ordusu"**

# Azərbaycan Ordusunun şəxsi heyəti ilə keçirilən ictimai-siyasi hazırlıq dərsi

## (İctimai-siyasi hazırlıq dərsinin qrup rəhbərinə kömək)

## Mövzu: Erməni terrorizmi. Ermənistanın Azərbaycana qarşı təcavüzü.

**Suallar:**

**1. Ermənilərin Azərbaycana qarşı ərazi iddialarının və təcavüzünün formalaşması tarixi.**

**2. XX əsrin axırlarında erməni separatçılığı. Ermənistan - Azərbaycan münaqişəsinin yaranma tarixi.**

### Ermənilərin Azərbaycana qarşı ərazi iddialarının və təcavüzünün formalaşması tarixi

Yerləşdiyi coğrafi əhəmiyyətinə və enerji mənbəyinə görə "Avrasiyanın dayaq nöqtəsi" kimi xarakterizə olunan, eyni zamanda tarixən geosiyasi maraqların toqquşduğu bölgə olan Cənubi Qafqaza əsrlər boyu imperialist güclər sahib olmağı hədəfləmiş və bu yolda təhlükəli silah kimi başlıca rol oynayan ermənilərdən istifadə etmişlər. Ermənilər ənənəvi olaraq həmişə özlərinə havadarlar tapmış, regionda yad qüvvələrin maraqlarına qulluq edərək, qonşularını satmış, bunun müqabilində isə aldıqları yüksək mənsəblər, yeni-yeni ərazilər, var-dövlət olmuşdur.

"Böyük Ermənistan" yaratmaq xülyası ilə yaşayan erməni millətçilərinin xalqımıza qarşı apardığı soyqırımı və təcavüz siyasətinin iki yüz ildən artıq tarixi var. Bu mənfur siyasətin məqsədi azərbaycanlıları qədim torpaqlarından sıxışdırıb çıxarmaq, bu ərazilərdə erməni ideoloqlarının uydurduğu "dənizdən-dənizə Ermənistan" dövləti qurmaqdır. Bu məqsədlə mərhələlərlə həyata keçirilən terror və soyqırımı siyasətinin qanlı fəsadları təkcə böyük türk dünyasının deyil, bütün bəşəriyyətin başı üstünü qara kabus kimi bürüməklə əsrlər boyu bu vandalizmin qurbanı olmuş Azərbaycan xalqının qan yaddaşında dərin izlər buraxmışdır.

1890-cı ildə "Daşnaksütyun" partiyasını yaratmaqla mənfur niyyətlərinə start verən ermənilər "yazıq millət" pərdəsi arxasında Qafqazda, Türkiyədə və dünyanın müxtəlif ölkələrində ən qanlı hadisələrə, terrora, qırğınlara imza atmışlar. Azərbaycan xalqına qarşı ərazi iddiaları, soyqırımı və deportasiya siyasəti də planlaşdırılmış ssenari üzrə tarix boyu mərhələlərlə davam etmişdir. XIX əsrin sonlarında, XX əsrin əvvəllərində, xüsusən 1905-1907-ci, 1915-1920-ci illərdə Bakıda, bölgələrdə dinc azərbaycanlılara qarşı həyata keçirilən qətliamlar ermənilərin çirkin və məkrli niyyətlərini reallaşdırmaq üçün başladıqları soyqırımı, eyni zamanda Azərbaycana qarşı ərazi iddialarının siyasətinin ilkin mərhələləri idi.

1917-ci ildə Rusiyada baş vermiş Oktyabr inqilabın nəticəsində, milliyətcə erməni olan Stepan Şaumyanın başçılıq etdiyi bolşevik hakimiyyəti Bakı quberniyasında hakimiyyəti ələ keçirmişdi. Bakı Sovetinin ordusunun yalnız adı sovetlərin siyahısında idi, əslində həmin ordu Erməni Milli Şurasına tabe idi. Belə vəziyyətdən istifadə edərək Bakı Soveti və "Daşnaksütyun"dan olan erməni silahlı dəstələri 1918-ci ilin 30 mart və 3 aprel tarixləri arasında Bakı şəhərində və Bakı quberniyasının müxtəlif bölgələrində, eləcə də Quba, Xaçmaz, Lənkəran, Hacıqabul, Salyan, Zəngəzur, Qarabağ, Naxçıvan və digər ərazilərdə azərbaycanlılara qarşı kütləvi qırğınlar törətdilər. Bu dəhşətli soyqırım nəticəsində 1918-ci il ərzində 40 minə yaxın azərbaycanlı qətlə yetirilmiş, on minlərlə insan itkin düşmüşdür.

Çar Rusiyasının süqutunun ardınca, İrəvan quberniyasının ərazisində erməni dövləti yaradılmış, Ermənistanda və Azərbaycanda sovet hakimiyyəti qurulduqdan sonra bolşevik rejiminin əli ilə Azərbaycan torpaqlarının daha bir hissəsi, o cümlədən, Qərbi Zəngəzur, Qazax qəzasının dağlıq hissəsi və Naxçıvanın bəzi kəndləri Ermənistana verilmiş və nəticədə onun ərazisi 9 min kv km-dən 29,8 min kv km-ə çatdırılmışdır.

Ermənilərin Qərbi Azərbaycanda və Qarabağda məskunlaşması tarixinə nəzər salaq:

Səfəvilərin vaxtında Azərbaycan inzibati-ərazi quruluşuna görə bəylərbəyliklərə bölünmüşdü. İndiki Ermənistanın ərazisi, Naxçıvan da daxil olmaqla Çuxur Sədd bəylərbəyliyi adlanırdı. Çuxur Sədd bəylərbəyliyinin mərkəzi İrəvan qalasının səkkiz yüz evdən ibarət olmuş və burada ancaq səfəvilər (yəni azərbaycanlılar) yaşamışdır.

1736-cı ildə Nadir şah Azərbaycanda mövcud olmuş inzibati-ərazi quruluşunu - bəylərbəylikləri (Qarabağ, Şirvan, Təbriz və Çuxur Sədd) ləğv etdi və həmin ərazilərdən ibarət mərkəzi Təbriz şəhəri olmaqla Azərbaycan vilayətini yaratdı. 1747-ci ildə Nadir şah öldürüldükdən sonra Azərbaycanın ərazisində müstəqil xanlıqlar, o cümlədən İrəvan xanlığı yarandı.

Çar Rusiyası ilə Qacarlar dövləti arasında 1826-1828-ci il müharibəsi 1827-ci ildə Azərbaycanın paytaxtı Təbriz şəhərinin rus qoşunlarının işğalı ilə nəticələndi. Bu dövlətlər arasında bağlanmış 1828-ci il Türkmənçay müqaviləsinə əsasən İrəvan və Naxçıvan xanlıqları da (Azərbaycan dövlətinin 210 min kv.km ərazisi İrana, 130 min kv.km. ərazisi isə Rusiyaya) çar Rusiyasının nəzarətinə keçdi. Osmanlı dövləti ilə çar Rusiyası arasında aparılan 1828-1929-cu illər müharibəsinin sonunda isə, Ədirnə sülh müqaviləsi bağlanıldı. Tükmənçay müqaviləsinə görə 40 000 erməninin, Ədirnə müqaviləsinə görə isə, 90 000 erməninin İran və Anadoludan Tiflis, İrəvan və Naxçıvan bölgələrinə köçürülməsi razılaşdırılmışdı və bununla da ermənilərin Azərbaycan torpaqlarına kütləvi yerləşdirilməsi əzəli Azərbaycan torpaqlarının erməniləşdirilməsi və yerli əhalinin sıxışdırılması prosesinə başlanıldı.

Ermənilərin havadarları tərəfindən Azərbaycan torpaqlarının erməniləşdirilməsi siyasəti sonralar da kütləvi şəkildə aparılmaqda davam etmişdi. Statisik göstəricilərə görə, yalnız 1828-1920-ci illər arasında Azərbaycana 560 000 erməni köçürülmüşdür.

Azərbaycan Xalq Cümhuriyyəti qurulduqdan sonra yaradılan Azərbaycan Ordusu köməyə gələn türk qoşunlarının köməyi ilə erməni silahlı birləşmələrinə qarşı bir sıra uğurlu əməliyyatlar apararaq azərbaycanlıların kütləvi qırğınının qarşısını ala bildilər. Lakin türk qoşunları Azərbaycanı tərk etdikdən və Azərbaycan Xalq Cümhuriyyəti 1920-ci ildə süqut etdikdən sonra Ermənistan rus bolşeviklərinin dəstəyi ilə 1921-ci ildə Azərbaycanın Zəngəzur bölgəsini ələ keçirə bildi.

Azərbaycan xalqı sovet imperiyasının tərkibində də terrora, kütləvi qırğınlara, deportasiyalara məruz qalmışdır. SSRİ Nazirlər Sovetinin "Ermənistan SSR-dən kolxozçuların və başqa azərbaycanlı əhalinin Azərbaycan SSR-in Kür-Araz ovalığına köçürülməsi haqqında" qərarı ilə 1948-1953-cü illərdə 150 min azərbaycanlı ilk baxışda görünməyən soyqırımına-deportasiyaya məruz qalmış, öz tarixi vətənindən zorla köçürülərək Azərbaycan Respublikasının ərazisində yerləşdirilmişdir. Deportasiya tədbirləri Ermənistanın 22 rayonunu əhatə etmiş və azərbaycanlıların yaşadıqları ərazilərdə həyata keçirilmişdi.

### XX əsrin axırlarında erməni separatçılığı. Ermənistan-Azərbaycan münaqişəsinin yaranma tarixi

Sovet hakimiyyəti illərində öz məkrli niyyətlərini gizlədən ermənilər ermənipərəst Mixail Qorbaçovun (1985-1991-ci illərdə SSRİ rəhbəri olmuşdur) SSRİ rəhbərliyinə gəlişindən sonra fəal hərəkətlərə keçdilər. 1985-ci ilin dekabrında ABŞ-dakı erməni inqilabı federasiyası (daşnak partiyası) və erməni milli komitəsi Birləşmiş Ermənistan yaratmağı özlərinin strateji vəzifəsi elan etdi. "Birləşmiş Ermənistan" Naxçıvanı, Qarabağı və Gürcüstanın tərkibində olan Axalkalakini də özündə birləşdirməli idi. Mixail Qorbaçovun milli siyasət sahəsində buraxdığı kobud səhvlərə qarşı öz etirazını bildirməklə ermənilərin planlarının həyata keçməsinə mane olan görkəmli dövlət xadimi, Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyev 1987-ci ilin oktyabrında SSRİ rəhbərliyindən uzaqlaşdırıldıqdan dərhal sonra, 1987-ci ilin noyabrında Dağlıq Qarabağ erməniləri öz separatçı tələblərini irəli sürdürərək Azərbaycan Respublikası ərazisində "ikinci erməni" dövlətini yaratmağa cəhd göstərdilər.

1988-ci il fevralın 20-də Dağlıq Qarabağ Muxtar Vilayəti Xalq Deputatları Sovetinin (DQMV XDS) yalnız erməni deputatlarının iştirakı ilə keçirilən növbədənkənar sessiyası vilayətin Azərbaycanın tərkibindən çıxarılıb Ermənistanın inzibati-ərazi bölgüsünə daxil edilməsi haqqında qərar qəbul etdi. Azərbaycan SSR Ali Soveti DQMV XDS-nin konstitusiyaya zidd qərarını rədd etdikdən sonra Ermənistanın millətçi rəhbərləri "Daşnaksütyun" partiyasının "Türksüz Ermənistan" proqramını həyata keçirməyə başladılar. 1988-ci il iyunun 15-də Ermənistan SSR Ali Sovetinin sessiyası DQMV-nin Ermənistana birləşdirilməsi haqqında qərar qəbul edərək SSRİ Ali Sovetinə müraciət etdi. 1988-ci il iyulun 18-də SSRİ Ali Soveti Rəyasət Heyətinin iclası DQMV haqqında məsələni müzakirə edərək respublikalar arasında sərhədlərin dəyişdirilməsini yolverilməz hesab etdikdən sonra, erməni millətçiləri türklərin Ermənistandan çıxarılması üçün mitinqlər təşkil etməyə başladılar.

1988-ci ilin iyununda erməni dəstələri azərbaycanlılar yaşayan Zəngibasar vilayətinin Uluxanlı qəsəbəsinə (Masis rayonu) və Zəngilər, Zəhmət, Dəmirçi, Dostluq, Nizami, Sarvanlar kəndlərinə basqınlar etdilər. Masis qəsəbəsində müdafiəsiz qalmış 3 mindən çox azərbaycanlı evlərindən çıxarılmışdı. Həmin ilin noyabr-dekabr aylarında Ermənistanın azərbaycanlı əhalisi yaşayan kəndlərə ərzağın göndərilməməsi, elektrik xətlərinin kəsilməsi, kəndlərə silahlı basqınlar edilməsi kimi səbəblərdən soydaşlarıımız öz tarixi vətənindən qaçqın düşməyə məcbur edildi. Moskvanın ermənilərə arxa durması nəticəsində 1988-89-cu illərdə indiki Ermənistan ərazisində azərbaycanlıların yaşadıqları 170 təmiz və 94 qarışıq yaşayış məntəqəsi boşaldıldı. Ermənistanın Mehri rayonunda qalmış axırıncı azərbaycanlı kəndi Nüvədi 1991-ci il avqustun 8-də boşaldıldı. Ümumiyyətlə, Ermənistandan 200 mindən artıq azərbaycanlı tarixi-etnik torpaqlarından qovuldu. Ermənistan rəhbərliyi azərbaycanlıların deportasiyasını başa çatdırdıqdan sonra Ermənistan Respublikası Ali Sovetinin qərarı ilə 90 türk mənşəli yaşayış məntəqəsinin adı dəyişdirildi.

Əsrin əvvəllərində olduğu kimi sonlarında da ermənilərin azərbaycanlılara qarşı ən qanlı cinayətlərdən biri, azərbaycanlıların kütləvi soyqırımını - Xocalı faciəsini törətdilər. Xocalı soyqırımı Ermənistanın Azərbaycana qarşı işğalçılıq müharibəsinin gedişində dinc azərbaycanlı əhaliyə qarşı törədilmiş soyqırımı cinayətlərinin ən dəhşətlisidir. Bundan əvvəl, Azərbaycanın Ermənistanla həmsərhəd Qazax rayonunun Bağanis Ayrım kəndinin, Dağlıq Qarabağda azərbaycanlılar yaşayan İmarət Qərvənd, Tuğ, Səlakətin, Axullu, Xocavənd, Cəmilli, Nəbilər, Meşəli, Həsənabad, Kərkicahan Qaybalı, Malıbəyli, Yuxarı və Aşağı Quşçular, Qaradağlı kəndlərinin işğalı zamanı həmin yaşayış məntəqələrinin dinc əhalisinin bir hissəsi qabaqcadan hazırlanmış plan əsasında xüsusi amansızlıqla qətlə yetirilib. Yalnız bunu qeyd etmək kifayətdir ki, Xocalı soyqırımından bir neçə gün əvvəl - 1992-ci il fevralın 17-də Xocavəndin Qaradağlı kəndində 80 nəfərdən çox azərbaycanlı kütləvi qırğına məruz qalıb.

Bütün dünya bir sadə həqiqəti anlamaq istəmirdi ki, ermənilərin qərəzli, məkrli planlarını həyata keçirərək Dağlıq Qarabağda 120 000 erməninin monoetnik, daha sərbəst və "ərköyün" yaşaması üçün 1 200 000 azərbaycanlı qaçqın və köçkün vəziyyətinə düşmüşdü, 1988-1993-cü illərdə Ermənistanın hərbi təcavüzü nəticəsində 20 000 nəfərdən çox azərbaycanlı həlak olmuş, 100 000 nəfərdən çoxu yaralanmış, 50 000 nəfər isə müxtəlif dərəcəli xəsarət alaraq əlil olmuşdur. Dünyanın böyük hissəsi bu qlobal miqyaslı faciəyə və ədalətsizliyə laqeyd qaldı. Lakin, Azərbaycan dövləti və xalqı bu faciələrə və çətinliklərə rəğmən, ayaq üstə durmaqda davam etdi və bütün sahələrdə inkişaf yolunu tutdu.

İşğalçı Ermənistan dövləti törətdiyi əməllərə görə cəzasız qalmasından istifadə edərək, sülh prosesini birdəfəlik pozmaq qərarına gəldi. Bu məqsədlə 2016-cı ilin aprel, 2020-ci ilin isə iyul və avqust aylarında Azərbaycan Silahlı Qüvvələrinə qarşı təxribatlar törətdi. Buna cavab olaraq Azərbaycanın həyata keçirdiyi tədbirlər Ermənistan silahlı qüvvələrinin canlı qüvvə və hərbi texnika sarıdan böyük itkilər verməsinə gətirib çıxardı.

Ermənistan silahlı qüvvələrinin 2020-ci il sentyabrın 27-də növbəti təcavüz aktından sonra Azərbaycan Respublikası BMT-nin Nizamnaməsinin verdiyi özünümüdafiə hüququndan yararlanaraq, təcavüzkarı sülhə məcbur etmək, torpaqlarımızın işğalına son qoymaq məqsədi ilə əks-hücum əməliyyatına başladı.

Azərbaycan Respublikasının Prezidentl, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan Ordusu 44 gün çəkən Vətən müharibəsində heyrətamiz qələbələr əldə edərək, dünya hərb tarixinə yeni şanlı səhifələr yazdı. Azərbaycan dövlətinin və Azərbaycan xalqının apardığı çoxillik mübarizədə Azərbaycanın ərazi bütövlüyü təmin olundu. Dövlətimizin başçısı hələ döyüşlərin qızğın vaxtında Azərbaycan Ordusunun güc-qüdrətinin belə yüksək səviyyəyə çatmasının təsadüfi olmadığını xüsusi vurğulayaraq deyib: "Ordu quruculuğu mənim fəaliyyətimdə həmişə birinci yerdədir. Hərbçilər də, Azərbaycan xalqı da bunu bilir. Həmişə demişəm ki, ordumuz üçün nə lazımdırsa, biz onu da edəcəyik. Biz güclü, iradəli ordu yaratmışıq. Bizim bütün silahlı birləşmələrimiz müasir standartlara cavab verir və döyüş tapşırığını şərəflə, vicdanla, cəsarətlə yerinə yetirir...".

Bu gün Azərbaycan Ordusu qarşısında respublikanın suverenliyinin, ərazi bütövlüyünün və dövlətçiliyin müdafiəsinin ayıq-sayıq qorumaq vəzifəsi durur. Hər bir hərbi qulluqçu dərk etməlidir ki, o öz vəzifə borcunu vicdanla yerinə yetirməklə, döyüş və ictimai-siyasi hazırlıq dərslərində, təlimlərdə, hərbi biliklərə dərindən yiyələnməklə, mənəvi-psixoloji və fiziki hazırlığını artırmaqla, intizamlı olmaqla Azərbaycan Ordusunun inkişafını daha da artıraraq Azərbaycan xalqının əzəli torpaqlarında sülh şəraitində yaşamasını təmin edəcəkdir.

**İdeoloji İş və Mənəvi-Psixoloji Təminat İdarəsi**

*Tarix yazan oğullar*

# Cəsur döyüşçü və ya bir ailənin Vətən sevgisi

*Vətən müharibəsində qazanılan zəfər Azərbaycan tarixinin səhifələrinə yazılmaqla, həm də azərbaycanlı kimi hər birimizin yaddaşına, ruhuna yazıldı. Bu tarixi dönəmin şahidləri olaraq 30 il yurd həsrəti çəkmiş, haqq etdiyimiz zəfər müjdəsini bir gün duyacağımız hissiylə yaşamışdıq, yaşlanmışdıq. Amma ümidimizi heç zaman itirməmişdik. Təməli ümummilli liderimiz Heydər Əliyev tərəfindən qoyulan ordumuzun gündən-günə gücləndiyinin, peşəkar zabit kadrları və vətənpərvər gənclərlə komplektləşdirildiyinin canlı şahidləri idik.*



Ötən il dekabrın 24-də Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev Xocavənd rayonunun Hadrut qəsəbəsində hərbi hissənin açılışı zamanı demişdir: "Bizim vətənpərvərlik ruhumuz, qəhrəmanlığımız, Vətənə olan bağlılığımız, fədakarlığımız bütün dünyada Azərbaycan Ordusu, Azərbaycan xalqı haqqında dəqiq təsəvvür yaratdı. Göstərdi ki, biz böyük xalqıq, göstərdi ki, biz özümüzə məxsus olan torpaqları nəyin bahasına olursa-olsun, azad edən xalqıq".

Əlbəttə, milli ruh olmadan hər hansısa fədakarlıqdan, qələbədən danışmaq olmaz. Nə qədər yüksək peşəkarlığa və güclü texnikaya sahib olsaq da, nəticədə silahları, necə deyərlər, dilə gətirən insan faktorudur.

Vətənə bağlı fədakar insanları, hərbi peşəyə könül verənləri, müharibənin sərt üzünə rəğmən bir addım geri çəkilməyərək düşmən üzərinə yeriyən, bizə zəfər sevincini yaşadan igidlərimizi tanımaq və tanıtmaqdan gözəl nə iş ola bilər ki?!

Bu il 22 yaşı tamam olan, ömrünün yaşanmış kiçik bir hissəsinə böyük qəhrəmanlıq dastanı sığdıran, sağlamlığını qurban verən, Vətən torpaqlarının azad olunmasında pay sahibi olan Fərman Mirzəmmədovu birlikdə tanıyaq, tanıtdıraq. Bu gəncin sinəsini medallar bəzəyir. Qoy yetişən nəsil də görsün ki, qəhrəmanlığın yaşı olmur, Vətən məhəbbəti, xalq sevgisi, dövlətə sədaqət olan yerdə!

Əsrimizin və yazımızın qəhrəmanı ilə telefon danışığımız olur. O, bizi evinə dəvət edir - yeni mənzilinə. Məmnuniyyətlə dəvəti qəbul edir və Babək rayonuna yol alırıq. Rayonun mərkəzi küçələrinin birində ucalan yeddimərtəbəli binanın dördüncü mərtəbəsinə liftlə qalxırıq. Qapını həyat yoldaşı Zivər xanım açır. Bizi mehribanlıqla içəri dəvət edir. İlk baxışdan mənzil işıqlı və geniş olması ilə diqqəti cəlb edir. "Mənziliniz mübarək!", - deyib söhbətə körpü salırıq. Müsahibim dərhal döyüş formasını geyinir. Sağ əlini yaxşı tərpədə bilmədiyinə görə yoldaşı ona kömək edir. Medallarını sinəsinə taxır - həvəslə, sevgi ilə.

“Hələ ikisi qalır, onu da verəcəklər”, - deyir Fərman. Ordu sıralarından tərxis olunsa da, onun bizimlə adi ev geyimində deyil, hərbi formada cəsur döyüşçü obrazında dialoqa girmək istəyi nəzərimizdən yayınmır. Gəncin sevərək seçdiyi peşəsinə olan məhəbbətini, formasına olan sevgisini, sonu zəfərlə bitən müharibə xatirələrini bölüşmək həvəsini səmimi təbəssümlə qarşılayıb söhbətinə diqqət kəsilirik.

Naxçıvan Əlahiddə Ümumqoşun Ordunun xüsusi təyinatlılarında xidmət etmiş müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu Fərman Mirzəmmədov 2000-ci ildə Babək rayonunun Kərimbəyli kəndində anadan olub. Hərbi xidmətini başa vurduqdan sonra ailənin ilk övladı olan Fərman ömrünü orduya bağlamağı qərara alıb.

Sentyabrın 27-si müharibə başlayanda Vətən torpaqlarını yağı düşməndən təmizləmək kimi müqəddəs missiyanın iştirakçılarından olmaq Fərmanın da arzusu olub. Axı onu hərb peşəsinə bağlayan düşmənin murdar ayağını torpaqlarımızdan təmizləmək, 20 Yanvar faciəsinin və Xocalı soyqırımının qisasını almaq əsas amillərdən idi.

Bu amalla Fərman Mirzəmmədov oktyabrın 17-si Naxçıvandan yollanan qrupun tərkibində döyüşlərə qatılır. Onun döyüş yolu Cəbrayıl, Füzuli, Xocavənddən keçir.

Fərman Mirzəmmədov: "Xocavəndin Tuğ kəndində bizi pusquya saldılar. Təxminən yarım saat 70 nəfərə qarşı 38 nəfər döyüşdük. Məqsədləri bizi əsir götürmək idi. Amma nəticədə özləri əsir düşdülər. Həmin döyüşdə iki nəfər yaralandı. Onlardan biri mən idim. Sağ tərəfimi, əsas da sağ qolumu hiss etmirdim. Səhərə yaxın məni ərazidən çıxarıb Füzuli xəstəxanasına çatdırdılar".

Vətən müharibəsi iştirakçısı kimi qələbənin qazanılmasına töhfə verdiyi üçün qürur duyan Fərman Mirzəmmədov dövlət başçımızın müvafiq sərəncamları ilə "Xocavəndin azad olunmasına görə", "Füzulinin azad olunmasına görə" və "Cəsur döyüşçü" medalları ilə təltif olunub.

- Lazım gələrsə, yenə də torpaqlarımızın müdafiəsində dayanmağa, döyüşməyə, canımı fəda etməyə hazıram. Zəfər xəbərini mən xəstəxanada eşitdim, tibb bacılarından. İnanın, sevindiyimdən ağladım. Biz bu yolda şəhidlər verdik, yaralılarımız oldu. Zəfər bizim haqqımız idi. O torpaqların sahibi kimi dönüşümüz də qəhrəmancasına oldu. Düşmən kimi hiylə işlətmədən, səngərdən qaçmadan, döyüş meydanını tərk etmədən. Sonuna qədər döyüşdük, alnıaçıq, üzüağ. Ölümün gözünə belə dik baxdıq, əyilmədik, sınmadıq".

2021-ci il fevralın 8-də Vətən müharibəsi iştirakçıları ilə görüşən və onların Vətən müharibəsində şücaət, peşəkarlıq və vətənpərvərlik göstərdiklərini qeyd edən Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri Vasif Talıbov demişdir: "Vətən müharibəsində Azərbaycanı qələbəyə aparan da milli ruh, milli iradə və vətənpərvərlik oldu. Bu səbəbdən də vətənpərvərlik tərbiyəsi daim diqqətdə saxlanılmalı, şəhidlərimizin, Vətən müharibəsi iştirakçılarının döyüş yolu gənc hərbi qulluqçular üçün nümunə olmalıdır".

Vətənpərvərlik tərbiyəsi ilk ailədən başlayır. Valideynlərinin xeyir-duası ilə müharibəyə yollanan Fərmanın kiçik qardaşı Azər Mirzəmmədov hazırda Heydər Əliyev adına Hərbi Liseyin kursantıdır. Qardaşı Fərmanın sinəsi medallı qalib əsgər kimi dönüşündən ruhlanan Azər bu il sənədlərini hərbi liseyə verib və qəbul olub. Fərmanın məlum səbəblərdən yarımçıq buraxdığı peşəsini Azər peşəkar zabit kimi şərəflə davam etdirəcək, qardaşının da əməyi olan azad torpaqların keşiyində sədaqətlə dayanacaqdır.

Məlum olduğu kimi, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev 2021-ci il sentyabrın 23-də "Naxçıvan Muxtar Respublikası ərazisində yaşayan Vətən müharibəsi ilə əlaqədar şəhid ailəsi statusu almış, habelə müharibə ilə əlaqədar əlilliyi müəyyən edilmiş şəxslərin mənzil-məişət şəraitinin yaxşılaşdırılması haqqında" Sərəncam imzalayıb, 1 milyon manat vəsait ayrılıb. Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin 14 dekabr 2020-ci il tarixli Fərmanına əsasən isə Azərbaycan Respublikasının ərazi bütövlüyünün müdafiəsi ilə əlaqədar yaralananların və şəhid ailələrinin təminatına dəstək fondu yaradılıb. 2021-ci ildə ölkə Prezidentinin müvafiq Sərəncamı ilə ayrılan və dəstək fondunun vəsaitləri hesabına muxtar respublikada 23 şəhid ailəsi və qazi mənzillə, 18 Vətən müharibəsi iştirakçısı avtomobillə təmin olunub, müvafiq kateqoriyadan olan 23 şəxsin müalicə və müayinəsinə köməklik göstərilib, şəhid ailələri və qazilərdən 17 nəfərinin kredit borcu ödənilib, 25-nin isə mənzilləri təmir olunub.

Görülən işlərin davamı olaraq ötən il dekabrın 24-də - Azərbaycan Respublikası Prezidentinin yubileyində 3 şəhid ailəsinə və 2 qaziyə mənzillər, 10 Vətən müharibəsi iştirakçısına isə avtomobillər təqdim olunub. Mənzil alan qazilərdən biri də əsrimizin və yazımızın bugünkü qəhrəmanı Fərman Mirzəmmədovdur. Fərman yeni ili ailəsi ilə birlikdə yeni mənzilində qarşılayıb. Tezliklə mənzili körpə qığıltısı bürüyəcək, işıqlı mənzili daha da çıraqban edəcəkdir. Xeyirli, uğurlu olsun!

**Ruhiyyə RƏSULOVA**
**Naxçıvan Televiziyasının baş redaktoru**

# Xəbərlər: hadisələr, faktlar

## ABŞ hərbçilərinin növbəti qrupu Polşaya gəlib



ABŞ-ın 82-ci hava-desant diviziyasının növbəti qrupu Polşanın Rzeşov yaxınlığındakı Yasionka hərbi aviabazasına enib.

Bu barədə məlumatı Polşanın Müdafiə Nazirliyi təsdiqləyib. Qeyd edilib ki, ABŞ hərbçilərinin Polşaya müvəqqəti yerləşməsi NATO-nun şərq cinahının gücləndirilməsi məqsədini daşıyır. Yaxın müddət ərzində Polşaya göndərilən ABŞ hərbçilərinin sayı 1700 nəfərə çatacaq.

Polşa ordusunda briqada generalı Voyçiex Marxvitsa bildirib ki, desant qüvvələri yerli qüvvələrlə birlikdə ardıcıl təlimlər keçəcəklər.

ABŞ-ın 82-ci hava desant diviziyasının komandiri general Kristofer Donahyu Polşaya verilən dəstəyin NATO çərçivəsində həmrəyliyin sübutu olduğunu vurğulayıb. O bildirib ki, 82-ci Hava Desant Diviziyasının qoşunları "bütün sahələrdə müttəfiqlərin hazırlığını və qarşılıqlı fəaliyyət qabiliyyətini gücləndirmək və lazım gələrsə, NATO alyansını qorumaq üçün" Polşaya köçürülmək əmri alıb.

Polşanın PAP agentliyinin məlumatına görə, ABŞ Avropada yerləşdirilməsi üçün 8500 hərbçisini yüksək hazırlıq vəziyyətinə gətirib.

## İraq ordusu terrorçulara qarşı əməliyyata başlayıb



İraq ordusu və könüllü dəstələr İŞİD terror qruplaşmasına qarşı birgə hərbi əməliyyata başlayıb.

İraq ordu komandanlığının yaydığı açıqlamada bildirilir ki, 2014-cü ildə həmin terrorçu qruplaşma dağıdılsa da, onun bəzi üzvləri ölkənin müxtəlif vilayətlərində gizlənərək fəaliyyət göstərirlər. Son günlərdə İraq ordusunun 11 əsgərinin tərəfindən qətlə yetirilməsi terrorçulara qarşı genişmiqyaslı hərbi əməliyyatın keçirilməsini zərurətə çevirib.

Açıqlamada bildirilir ki, əməliyyatlar əsasən Havi Əl-Əzim, Səlah-Əd Din, Kərkük və Tiqrit vilayətlərində həyata keçirilir. Terrorçuların gizlənə biləcəyi yerlər, evlər və dağlıq bölgələrdə axtarışlar aparılacaq.

İraq mətbuatının yazdığına görə, terrorçular Əl-Anbar və Bağdad ətrafındakı yaşayış məskənlərində də gizli fəaliyyət göstərirlər. Onların aşkarlanması və cəzalandırılması xüsusi xidmət orqanlarının üzərinə düşür.

## Latviyada minlərlə hərbi qulluqçunun iştirakı ilə təlimlər keçiriləcək



Latviyada cari ilin yay mövsümünün ortalarına qədər latviyalı və bir neçə min xarici hərbi qulluqçunun iştirakı ilə altı beynəlxalq təlim təşkil ediləcək.

Latviya mətbuatı xəbər verir ki, fevral və mart aylarında Latviya Milli Silahlı Qüvvələr və digər ölkələrin hərbi qulluqçuları "Saber Strike" və "Kristala bulta" təlimləri keçirəcək.

Bildirilib ki, bu ilin mayında "Swift Response", "Summer Shield" və "Defender Europe", iyun ayında isə "Baltops 22" təlimləri olacaq.

Qeyd edilib ki, hər bir təlimin öz məqsəd və vəzifələri müəyyən edilib. "Swift Response" təlimləri zamanı ABŞ ordusunun Avropa və Afrikadakı komandanlığı Baltikyanı ölkələrdə, Balkanlarda və Qara dəniz regionunda desant əməliyyatları üzrə təlimlər keçəcək. Latviyada "Swift Response" təlimlərində ABŞ, Polşa, Çexiya və Latviyadan olan hərbi birləşmələr iştirak edəcək.

**AZƏRTAC-ın materialları əsasında**

# Qələbə ovqatlı əlamətdar gün





"N" hərbi hissəsinin yaranmasının 26-cı ildönümü münasibətilə hərbi hissədə tədbir keçirildi. Əvvəlcə ümummilli lider Heydər Əliyevin və ölkəmizin ərazi bütövlüyü uğrunda şəhid olanların xatirəsi bir dəqiqəlik sükutla yad edildi. Azərbaycan Respublikasının Dövlət Himni səsləndirildi.

Əlamətdar gün münasibətilə çıxış edən polkovnik Mahir Mirzəyev bildirir ki, hərbi hissə yarandığı gündən qarşısında dayanan vəzifələri yüksək bacarıq və məsuliyyətlə yerinə yetirib. Hərbi hissənin zabit və əsgərləri Birinci Qarabağ müharibəsində də, Aprel döyüşlərində də, İkinci Qarabağ müharibəsində də yaxından iştirak ediblər. Torpaqlarımızın erməni işğalçılarından azad olunması naminə, düşmən üzərində Qələbə və Zəfər naminə igidliklə vuruşublar. 44 gün davam edən müharibə zamanı döyüş tapşırıqlarını yerinə yetirərkən hünər və cəsarət göstəriblər. "Hərbi hissənin ildönümünü zəfər və qələbə ovqatı ilə qeyd edirik. Hamımız üçün qürurverici bir gündür. Hörmətli zabit və əsgərlər, əlamətdar gün münasibətilə hər birinizi təbrik edir, gələcək xidmətinizdə sizə yeni-yeni uğrurlar arzulayıram".

Tədbirdə Müdafiə nazirinin müavini - Maddi-Texniki Təminat Baş İdarəsinin rəisi general-leytenant Nizam Osmanovun təbrik məktubu oxundu. Məktubda deyilirdi ki, yoldaş zabitlər, gizirlər, çavuşlar, əsgərlər və mülki işçilər! Sizi hərbi hissənin yaranmasının ildönümü münasibətilə səmimi qəlbdən təbrik edirəm. Möhtərəm Prezidentimiz, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin rəhbərliyi altında Müzəffər Azərbaycan Ordusu 44 günlük Vətən müharibəsində yüksək döyüş qabiliyyəti və mənəvi ruh nümayiş etdirərək uzun illərdən bəri işğalda qalmış torpaqlarımızı azad etdi. Vətən müharibəsində qarşıya qoyulan tapşırıqların yüksək səviyyədə yerinə yetirilməsində hərbi hissənizin şəxsi heyətinin də böyük əməyi olmuşdur. Əminəm ki, bundan sonra da xidməti borcunuzu layiqincə yerinə yetirəcək, döyüş hazırlığının və mənəvi-psixoloji ruhun yüksəldilməsində səylərinizi daha da artıracaq, Vətənimizin müdafiəsinə həmişə hazır olacaqsınız.

Polkovnik-leytenant Aqil İsmayılov, mayor Vüsal Kərimov, mayor Elnur Cavadov və başqaları da çıxış edərək şəxsi heyəti təbrik etdilər. Onlara xidmətlərində yeni-yeni uğurlar arzuladılar.

Sonda xidmətdə fərqlənən bir qrup hərbçi qiymətli hədiyyələrlə, fəxri fərmanlarla mükafatlandırıldı. Şəxsi heyət qələbə ovqatlı əlamətdar bir gün yaşadı.

**Vahid MƏHƏRRƏMOV**
**"Azərbaycan Ordusu"**

## "Xocalı qətliamı Azərbaycan tarixinin faciəvi səhifələrindən biridir"

*Böyük Britaniya hökuməti Xocalı soyqırımının 30-cu ildönümü ərəfəsində bu faciəyə münasibətini bildirib.*

AZƏRTAC xəbər verir ki, Parlamentin İcmalar Palatasının üzvü, Böyük Britaniya-Azərbaycan parlamentlərarası dostluq qrupunun rəhbəri Bob Bləkmən tərəfindən hökumətə ünvanlanmış yazılı müraciətdə hökumətin faciəyə münasibəti sorğu edilib.

Hökumətin mövqeyi Xarici İşlər nazirinin müavini, Avropa məsələləri üzrə dövlət naziri Kris Hiton-Harris tərəfindən təqdim olunub.

Bləkmənin sualına cavab olaraq dövlət naziri Xocalı qətliamını Azərbaycan tarixinin faciəvi səhifələrindən biri kimi səciyyələndirib. O, Xocalı soyqırımının baş verdiyi dövrdə iqtidarda olmuş Birləşmiş Krallıq hökumətinin həmin hadisələri sərt şəkildə qınadığını xatırladıb. Dövlət naziri, həmçinin belə faciələrin gələcəkdə baş verməməli olduğunu vurğulayıb.

## "Yoldaşlıq dostluğun başlanğıcıdı"



Qədim Roma mütəfəkkiri Siseron dostluq haqqında belə deyib: "Dost insanın ikinci özüdür". Hamı böyüdükcə "ikinci özünü" axtardığının fərqinə varmır. Məhəllədə, məktəbdə yoldaşlıq edir. Bu yoldaşlığın az hissəsi dostluğa körpü olur. Dostluq qarşılıqlı güvən deməkdir. Münasibətlərdə inam, güvən varsa, dostluq davamlı və möhkəm olur. Çoxlu yoldaşın ola bilər, ancaq tam etibar edəcəyin şəxslər azlıq təşkil edəcək, çünki dostluq münasibətləri fərqli olur, səmimiyyətin, inamın, etibarın səviyyəsinə görə fərqlənir. Əgər yaxşı dostunun olmasını istəyirsənsə, onda özün yaxşı dost olmağı bacarmalısan. Bu münasibətləri hec nə ilə sarsıtmaq mümkün deyil. Təsadüfi deyil ki, ən möhkəm dostluq münasibətləri hərbi xidmətdə yaranır. Bu cür dostluq son nəfəsəcən qalır - əsgərləri bir-birilərinə bağlayan torpaq, Vətən, can əmanətidi.

"N" hərbi hissəsində xidmət edən Həsənağa Sultanov və Məhəmməd Xəlilzadə arasında da dostluq belə başlanıb, belə davam edir. Onların dostluğu digərləri üçün örnəkdir.

"Əsl dost hər adama qismət olmur", - deyə əsgər Həsənağa Sultanov öz yaxın dostundan söhbət açdı. "Hərbi xidmətə başladığım ilk gündən xidmət yoldaşlarımla yaxşı münasibətim var. Məhəmməd ilə bir ildən çoxdur ki, dostluq edirik. Onun şəxsi keyfiyyətləri hər birimizə nümunədir. Məhəmməd kimi dostumun olduğuna görə hər zaman qürur duyuram".

Məhəmməd Xəlilzadə də Həsənağa kimi düşünür: "Kimin dostu var, onun xəzinəsi var. Hər birimizin ən azı bir dostu olmalıdı. Hərdən həyatda elə məqamlar olur ki, çətinliklərlə üzləşirsən və həmin çətinliklərin öhdəsindən gəlməyə yalnız dostun kömək edə bilir. Onu da bildirim ki, asudə vaxtlarımızda maraqlı söhbətlər edir, qəzet, jurnal və bədii əsərlər oxuyuruq. Komandirlərimiz də bizə şanlı qələbəmizlə başa çatan Vətən müharibəsindən danışırlar. Bizim məqsədimiz tərxis olunandan sonra da rəşadətli ordumuzun sıralarına qayıtmaq, işğaldan azad olunan torpaqlarımızda xidmətimizi davam etdirməkdir. Hər ikimiz bu fikirdəyik".

Əsgərlərimizin səmimi dostluq münasibətləri bir ömrə bəs edən qırılmaz zəncirdir. Məhz belə bir yoldaşlıq, birlik, vətənpərvərlik ordumuza düşmən üzərində qələbə qazandıran amillərdən biri oldu. Mövlana deyirdi: Bir mən də var məndə məndən içəri. O mən - dostdur...

**Kursant**
**Elvin VƏTƏNDUST**

# İdman

## Uşangi Kokauri cüdo üzrə "Böyük dəbilqə" turnirində ikinci yeri tutub



Parisdə keçirilən "Böyük dəbilqə" turnirində Azərbaycan cüdoçusu Uşangi Kokauri (+100 kq) gümüş medal qazanıb.

Təmsilçimiz həlledici mərhələdə Monqolustan təmsilçisi Tsetsencel Odxuu ilə qarşılaşmada məğlub olaraq gümüş medalla kifayətlənib.

Qeyd edək ki, bu medal Azərbaycan komandasının turnirdə ikinci mükafatıdır. Belə ki, bundan əvvəl komandamızın üzvü Məmmədəli Mehdiyev (90 kq) də yarışda ikinci yeri tutub.

Xatırladaq ki, Azərbaycan bu gün başa çatan yarışda 6 cüdoçu ilə təmsil olunur. Turnirdə 52 ölkədən 285 idmançı iştirak edib.

## Şəhriyar Məmmədyarov "Champions Chess Tour"un ilk mərhələsi olan "Airthigs Masters" turnirində iştirak edəcək




"Champions Chess Tour"un ilk mərhələsi olan "Airthigs Masters" turnirinin iştirakçılarının siyahısı müəyyənləşib.

Fevralın 19-da start götürəcək yarışda Azərbaycan şahmatçısı Şəhriyar Məmmədyarov da iştirak edəcək.

Yarışda dünyanın ən güclü şahmatçıları ilə yanaşı, gənc istedadlar da güclərini sınayacaqlar. Belə ki, 2021-ci ildə rapid üzrə dünya birinciliyində hazırkı dünya çempionu Maqnus Karlsen, rusiyalı tanınmış qrosmeyster Yan Nepomnyaşi, ABŞ təmsilçisi Fabiano Karuananı məğlub edən və nüfuzlu yarışın qalibi olan 17 yaşlı özbəkistanlı Nodirbek Abdusattorov da yer alıb. Eyni zamanda, turnirdə 16 yaşlı hindistanlı Rameşbabu Praqqnanandaa və digər gənc şahmatçılar da mübarizə aparacaqlar.

Ötən il keçirilən analoji turnirin ən yaddaqalan hadisələrindən biri Teymur Rəcəbovun finalda ermənistanlı şahmatçı Levon Aronyan üzərində parlaq qələbə qazanmaqla qalib olması olub. Digər maraqlı hadisə isə rusiyalı şahmatçı Daniil Dubovun Maqnus Karlseni dörddəbir finalda yarışdan kənarlaşdırması idi.

## Azərbaycan təmsilçisi Vladimir Litvintsev "Pekin-2022"nin ilk yarışında uğurlu çıxış edib



"Pekin-2022" Qış Olimpiya Oyunlarında Azərbaycanı təmsil edən fiqurlu konkisürən Vladimir Litvintsev fevralın 8-də fərdi yarışlarda qısa proqramla çıxış edib.

Kanada, İsveç, İsveçrə, Estoniya və Çin atletlərinin yarışdığı birinci qrupda mübarizə aparın idmançımız 84,15 bal toplayıb. O, fevralın 10-da kişi fiqurlu konkisürənlərin sərbəst proqramında da çıxış edəcək.

Qeyd edək ki, Azərbaycan Qış Olimpiadasında iki idmançı ilə təmsil olunur. V.Litvintsevlə yanaşı, fiqurlu konkisürən Yekaterina Ryabova da medallar uğrunda yarışacaq. Y.Ryabova fevralın 15-də və 17-də mübarizə aparacaq.

"Pekin-2022" Qış Olimpiya Oyunlarında 91 ölkədən ümumilikdə 2800-dən çox idmançı mübarizə aparır. Olimpiadada atletlər idmanın 15 növü üzrə 109 dəst medal uğrunda qüvvələrini sınayırlar.

**AZƏRTAC-ın**
**materialları əsasında**

Gizir Feyzullazadə Cavanşir Təvəkkül oğluna məxsus SQ № 0021843 nömrəli şəxsi vəsiqə itdiyi üçün etibarsız sayılır.

**Baş redaktorun müavini**
kapitan
Məhəmməd NƏSİRLİ

**Telefonlar**
Baş redaktor: (012) 510-71-97 (faks);
Baş redaktorun müavini: (012) 510-64-27;
Məsul katib: (012) 510-71-98;
Məktublar şöbəsi: (012) 510-64-28.

**Ünvanımız**
Bakı şəhəri, akademik Şəfaət Mehdiyev küçəsi 144, "Qızıl Şərq" hərbi şəhərciyi

**Növbətçi**
baş leytenant
Günay TAĞIYEVA

**Qəzetin hesabı**
Nərimanov Rayon Xəzinədarlığı
Kod: 200189
VÖEN: 1500428611

Qəzet həftədə iki dəfə (III-VI günlər) nəşr olunur. "Azərbaycan Ordusu" qəzeti kompüter mərkəzində səhifələnərək "Hərbi Nəşriyyat"ın mətbəəsində hazır diapozitivlərdən çap olunur. Əlyazmalara rəy verilmir, təqdim edilən yazılar müəllifə qaytarılmır.
Qəzeti **mod.gov.az** saytından oxuya bilərsiniz.

Lisenziya № 361
Sifariş № 265
Nüsxə 4080